# Sumqayıt hadisələrindən 28 il keçir

Sumqayıt hadisələrindən xeyli vaxt keçmişdir. Yaşlı və orta nəslin nümayəndələri 28 il əvvəl—1988-ci il fevralın 27-28-də Sumqayıtda erməni millətçilərinin törətdiyi qanlı aksiyanı yaxşı xatırlayırlar. Hadisəni törətməkdə başlıca məqsəd erməni şovinistlərinin azərbaycanlıları başkəsən, quldur və qaniçən bir millət kimi dünya ictimaiyyətinə təqdim etməsi idi.

Tarixən böhtan və iftiralarla məşğul olan erməni terrorçuları təxribat törətmək üçün Sumqayıtı seçməkdə yanılmamışdılar. Çünki 300 minə yaxın əhalisi olan Sumqayıtda yaşayanların əksəriyyəti gənclər idilər: onları daha tez təxribata çəkmək mümkün idi.

Sumqayıtda baş verən hadisələrdə əsas təşkilatçılardan və icraçılardan biri Eduard Qriqoryan idi. O, iki dəfə məhkum olunmuşdu və heç bir yerdə işləmirdi. «Krunk»un fəal üzvü idi. İstintaq qrupunun materiallarından aydın olmuşdur ki, 1988-ci il fevral ayının ortalarında onun yaşadığı mənzilə Yerevandan bir qrup emissar gəlibmiş. Qriqoryan təlimatlandırılmış, ona pul, narkotik vasitələr verilmişdi. «Paşa ləqəbli» Edik ertəsi gün ətrafına bir neçə azyaşlı yeniyetmə və gəncləri toplayıb, yaxın günlərdə bəzi əməliyyatlarda iştirak etsələr, çoxlu pul verəcəyini bildirərək onları şirniklәndirmiş və 1988-ci il fevral ayının 27—28-də Sumqayıtda iğtişaşlara rəhbərlik etmişdi. Qriqoryan və ona verilmiş xususi siyahı əsasında «Krunk» cəmiyyətinə üzv yazılmayan və üzvlük haqqı ödəməkdən imtina edən erməniləri məhv edildilər. Ermənilər bütün dünyaya car çəkərək şivən qopardılar ki, azırbaycnlılarla bir dövlətdə yaşamaq mümkün deyil. Hadisələr zamanı Sumqayıta xaricdən ezam olunmuş Artaşes Qabrilyan adlı erməni videokamera ilə hadisələrin bəzi məqamlarını lentə almış, hadisələri isə belə adlandırmışdı: «Bizi başkəsənlərdən xilas edin». Bu hadisə nəticəsində Sumqayıtda müxtəlif millətlərdən olan 32 adam, o cümlədən 26 erməni həlak olmuş, 400-dən çox insan bədən xəsarəti almış, 200-dən çox mənzil talan edilmiş, 50-dən artıq mədəni-məişət obyekti dağıdılmış, 40-dan çox avtomaşın sındırılmış və qismən yandırılmış, şəhərə o vaxtki qiymətlərlə 10 milyon Amerika dolları məbləğində maddi ziyan vurulmuşdur. Ermənilər isə dünya ictimaiyyətinə yalan məlumat verərək 500 nəfər ermənin öldürüldüyünü iddia edirdilər. Bu işin qabaqcadan planlaşdırıldığı ondan görünürdü ki, ermənilər hadisədən bir neçə gün keçmiş, tələm-tələsik, Xankəndində «Sumqayıt genosidi» abidəsini ucaltmışdılar.

Bu, iğtişaşları araşdırmaq üçün SSRİ Baş Prokurorluğu tərəfindən xüsusi cinayət işi açılmış, 444 nəfər adam məhkəmə qarşısında cavab verməli olmuş, onlardan 400 nəfəri 10—15 sutka təcridxanalarda saxlanılmış, bir neçəsi uzunmüddətli həbs cəzasına, bir nəfəri—Əhməd İman oğlu Əhmədov isə ən yüksək cəzaya—ölüm cəzasına məhkum olunmuş və bu hökm tez-tələsik yerinə yetirilmişdir. Amma hadisələrin əsl qatili E. Qriqoryan isə 12 il müddətitnə azadlıqdan məhrum edilmişdi.

Sumqayıt hadisələrinin başvermə səbəbləri araşdırılarkən ortaya belə bir sual çıxır: ermənilər öz təxribatlarını həyata keçirmək üçün niyə məhz bu yolu seçdilər. Cavab məlumdur: ölkəmiz əleyhinə güclü ideoloji müharibə aparmaq, habelə soydaşlarımızın indiki Ermənistandan zorla rovulmalarının səbəblərini ört basdır etmək idi. Bir də ki, Sumqayıtda törədilən təxribatın əsas məqsədi Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalına dünya ictimaiyyəti tərəfindən haqq qazandırmaq.

**A. CƏLİLOV.**

# Soğan insan orqanizmi üçün faydalıdır

Soğanın insan orqanizminə faydaları az deyil. Soğan bir sıra terapevtik və aktibakterial özəlliklərə malikdir. Bu özəlliklər sayəsində o, orqanizmi zəhərli maddələrdən təmizləyir, hətta bəzən müxtəlif xəstəliklərdən qoruya bilər.

Səhiyyə sahəsində çalışan ekspetlər soğanın faydalı cəhətlərini nəzərə almağa çağırırlar. Soğanın tərkibində 100-dən çox kükürd birləşmələri var. Bunlar tək bizə məlum olan qoxuya məsul deyil, həm də müxtəlif xəstəliklərin müalicəsi və profilaktikasında infoksikasiya üçün əla vasitə ola bilər.

Aşağıdakı xəstəliklərdə soğandan yaxşı profilaktik vasitə kimi istifadə edilə bilər.

**Astma.**

Soğanın tərkibindəki komponentlərdən biri antihistamın təsiri göstərir. Onun sayəsində soğanı iltihab əleyhinə vasitə kimi istifadə etmək olar. Laboratoriya sınaqları göstərib ki, soğanın tərkibindəki kvertselin maddəsi orqanizmi allergiyaya səbəb olan histaminlərin ifrazından qoruyur.

**Xərçəng**

Soğanın sarıköklə birlikdə qəbulu xərcəngin yaranmasının qarşısını ala bilər. 2006-cı il ildə aparılmış araşdırmaların nəticəsində məlum olub ki, onların birgə təsiri xərçəngdən əvvəlki hissəciklərin sayını azaldır.

**Şəkərli diabet**

Soğanın tərkibində olan əsas efir yağları allilepoildisnefid birləşməsi orqanizmdə insulin istehsalını stitmullaşdırır və qanda şəkərin miqdarını azaldır.

**Ürək xəstəlikləri**

Adətən, orqanizm üçün faydalı qidalar haqda danışarkən, soğan yadımıza düşmür. Ancaq 2007-ci illdə aparılmış araşdırma göstərdi ki, bu tərəvəzin tərkibindəki maddələr qan təzyiqini normaya salır, nəticədə isə ürəyin sağlam qalmasını təmin edir. Soğan ürək üçün qırmızı şərabdan daha faydalıdır.

**Dişlərin dağılması**

Çiy soğan dişlərin sağlamlığı üçün də faydalıdır. Əgər siz gün ərzində 2—3 dəqiqə çiy soğan çeynəsəniz, ağız boşlugundakı bütün zərərli bakteriyalardan xilas ola bilərsiniz. Gün ərzində bir baş soğan yemək isə dişlərini daha da sağlam edər.

# Müdriklərimiz bilik haqqında

✦Bilik öyrənməyi ar bilən
hər kəs
Dünyada mərifət qazana
bilməz.

**Nizami Gəncəvi.**

✦Biliksiz adam okeanda azan yelkənsiz gəmiyə bənzər, ya sahilə çırpılıb parçalanar, ya da tufana düşüb batar.

**Pifaqor.**

✦Bir şeyi pis bilməkdənsə bilməmək daha yaxşıdır.

**S. Publili.**

*İsgəndərin zülmətdə tapa bilmədiyini, ağ kağız üzərinə qara mürəkkəblə yazılmış kitablarda tapmaq olar.

**Hümam Təbrizi.**

✦Hər cür bilik müşahidələrə və təcrübəyə əsaslanır.

**B. Ş. Sent.**

✦Bilikdən daha zəngin xəzinə, pis xasiyyətdən daha rəzil düşmən ola bilməz.

**Sokrat.**

✦Bilikli və təcrübəli şəxslərlə yaxınlıq etmək, cahil və nadan adamlardan uzaqlaşmaq fərasətin əsasıdır.

**M. Ə. Təbrizi.**

✦Hava və qidadan sonra vücudumuzun ən çox tələb etdiyi üçüncü şey təhsil və tərbiyədir.

**İbn Əl Müqəffə.**

✦Bilik o vaxt bilikdir ki o, hafizə gücünə deyil, əql gücünə qazanılmışdır.

**L. N. Tolstoy.**

✦Yalnız bilik azdır, onu tətbiq etmək lazımdır, istəmək azdır, fəaliyyət göstərmək lazımdır.

**İ. B. Höte.**

✦Biliyinə qürrələnmə, bilmədiklərin bildiklərindən qat-qat çoxdur.

**Hümam Təbrizi.**

✦Çalışmaq lazımdır ki, hər kəs öz ata-babasının görüb bildiyindən çox bilsin.

**A. P. Çexov.**

✦Kəşf etmək hamının gördüyünü görmək, lakin hələ heç kəsin ağlına gəlməyəni düşünmək deməkdir.

**A. R. Dyerdi.**

✦Bilik həqiqətdən doğmuş olan hakimiyyətdir. Yalnız bilik insanları idarə edə bilər.

**V. Hüqo.**

✦İstedadlı kor, istedadsız gözlüdən daha yaxşı görür.

**T. Fikrət.**

**Topladı: N. Atakişiyev.**

# Erməni iddiaları, tarixi faktlar

Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyində 8 fevral tarixində "Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi prosesi" mövzusunda dəyirmi masa təşkil olunmuşdur. Tədbirdə qədim Azərbaycan torpaqlarının mərhələli şəkildə ermənilər tərəfidən işğal olunması haqqında tarixi mövzuda geniş söhbətlər aparılmışdır.

Muzeyin ekspozisiyasında sərgilənən tarixi kitablar da nəzərdən keçirilmişdir. Bu kitablarda vaxtilə ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, onların torpaq iddiaları, müxtəlif illərdə fürsət taparaq Vətənimizin ərazisini hissə-hissə işğal etmələri dəqiq tarixi faktlarla verilmişdir.

Xatırlatmaq istərdim ki, bu kitabları muzeyimizdə mütaliə etmək istəyənlərə şərait yaradılır.

**İlhamə SEYİDOVA,**
**rayon tarix-diyarşünaslıq muzeyi.**

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 19 yanvar 1998-ci il tarixdə 13 saylı qərarla Qəbələ rayonu Çarxana kənd sakini **Məmmədov Rafiq Cüvər oğlunun və ailə üzvlərinin** adına verilmiş JN-129 A (kodu 40604048) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam qəsəbə sakini **Qasımov İlqar Zərgar oğlunun** adına verilmiş JN-1095 A nömrəli (kod 40600048) olan **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Şuşa rayon Xanallar kənd sakini **Əlizadə Nəsimi Mahir oğluna** 2 aprel 2014-cü il tarixdə verilmiş AA 308174 №-li **Qaçqınlıq vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.
Oxucu məktubları geri qaytarılmır.